AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# WRITINGS ON THE LAST DAYS AND PASSING OF AHMAD AGAOGLU IN THE PAGES OF THE TURKISH PRESS

**Mahir Garibov**[1]

**UDC:** 070(560)“1939”:929(Agaoglu,A.)
**LBC:** 76.12(5Tur):63.3(5Tur)6
**HoS:** 144
**DOI:** 10.33864/2790-0037.2026.v7.i1.231-239

**Keywords:**

Turkish press,
Ahmad Agaoglu,
Public opinion,
Son Telgraf,
Tan,
Ulus,
Cumhuriyet,
Ikdam,
Son Posta,
Yeni Sabah

**Subject area:**

Multidisciplinary Researches

**Research field:**

History of Journalism

## ABSTRACT

Ahmed Agaoglu was one of the writers who left a deep mark on the history of the Azerbaijani and Turkish press, and on the Turkish world as a whole, with his position. Agaoglu, one of the great thinkers of the Turkish world, always maintained his nationalist-liberal position and, as an independent journalist who spoke his mind without hesitation until his death in 1939, was a supporter of free speech and democratic thinking. Agaoglu’s life, literary work, and journalistic views also diversified his literary career. Spending most of his life writing for various newspapers and magazines, the last days of Agaoglu’s life, according to an analysis of the press materials of the time, were widely covered in Turkiye’s leading newspapers. This study examines the articles published in the newspapers “Son Telgraf”, “Tan”, “Ulus”, “Cumhuriyet”, “Ikdam”, “Son Posta” and “Yeni Sabah”. The aim of the article is to reveal in the Turkish public’s reaction to the final days of Ahmad Bey Aghaoglu, as well as the lesser-known aspects of his life.

[1] Doctor of Philosophy in History,
Department of National Press History, Baku State University; Baku, Azerbaijan
E-mail: mahir_garibov@yahoo.com
https://orcid.org/0009-0002-8183-5802
**To cite this article:** Garibov, M. [2026]. Writings on the Last Days and Passing of Ahmed Ağaoğlu in the Pages of the Turkish Press. *History of Science journal*, *7*(1), pp.231-239.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i1.231-239

***Article history:***
*Received: 11.01.2026*
*Revised: 12.02.2026*
*Accepted: 01.03.2026*
*Published: 15.03.2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

# ƏHMƏD AĞAOĞLUNUN ÖMRÜNÜN SON GÜNLƏRİ VƏ DÜNYASINI DƏYİŞMƏSİNƏ DAİR XƏBƏRLƏR TÜRKİYƏ MƏTBUATI SƏHİFƏLƏRİNDƏ

**Mahir Qəribov**[1]

**UOT:** 070(560)“1939”:929(Ağaoğlu,Ə.)
**KBT:** 76.12(5Tür):63.3(5Tür)6
**HoS:** 144
**DOI:** 10.33864/2790-0037.2026.v7.i1.231-239

**Açar sözlər:**

Türkiyə mətbuatı,
Əhməd Ağaoğlu,
İctimai fikir,
“Son Telgraf”,
“Tan”,
“Ulus”,
“Cumhuriyet”,
“İkdam”,
“Son Posta”,
“Yeni Sabah”

**Sahə:**

Multidisiplinar Tədqiqatlar

**Tədqiqat sahəsi:**

Jurnalistika tarixi

## ANNOTASİYA

Əhməd Ağaoğlu Azərbaycan və Türkiyə mətbuatı tarixində, bütövlükdə türk dünyasında özünün mövqeyi ilə dərin iz buraxan ədiblərdən olmuşdur. Türk dünyasının böyük fikir adamlarından olan Ağaoğlu, hər zaman milliyyətçi-liberal mövqeyini qoruyub saxlamış və 1939-cu ildə ölümünə qədər sözünü çəkinmədən deyən müstəqil jurnalist kimi, azad sözün, demokratik təfəkkürün tərəfdarı olmuşdur. Ağaoğlunun həyatı, yaradıcılığı, yaçıçı və journalistika görüşləri onun ədəbi həyatını da şaxələndirib. Ömrünün böyük hissəsini müxtəlif qəzet və dərgilərdə yazılar yazmaqla keçirən Ağaoğlunun ömrünün son günləri, o dövrün mətbuat materiallarının təhlili göstərir ki, Ağaoğlunun vəfatı xəbəri Türkiyənin aparıcı qəzetlərində geniş şəkildə işıqlandırılmışdır. Bu tədqiqatda “Son Telgraf”, “Tan”, “Ulus”, “Cumhuriyet”, “İkdam”, “Son Posta” və “Yeni Sabah” qəzetlərində dərc olunan yazılar araşdırılır. Məqalənin məqsədi Türkiyə ictimaiyyətində Əhməd bəy Ağaoğlunun ömrünün son günləri, həmçinin həyatında az bilinən məqamları üzə çıxarmaqdır.

[1] Tarix üzrə fəlsəfə doktoru,
Milli mətbuat tarixi kafedrası, Bakı Dövlət Universiteti; Bakı, Azərbaycan
E-mail: mahir_garibov@yahoo.com
https://orcid.org/0009-0002-8183-5802
**Məqaləyə istinad:** Qəribov, M. [2026]. Əhməd Ağaoğlunun Ömrünün Son Günləri və Dünyasını Dəyişməsinə Dair Xəbərlər Türkiyə Mətbuatı Səhifələrində. *History of Science jurnalı*, *7*(1), səh.231-239.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i1.213-239

***Məqalənin tarixçəsi:***
*Daxil olub: 11.01.2026*
*Yenidən baxılıb: 12.02.2026*
*Təsdiqlənib: 01.03.2026*
*Dərc olunub: 15.03.2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

# СТАТЬИ О ПОСЛЕДНИХ ДНЯХ ЖИЗНИ И СМЕРТИ АХМЕДА АГАОГЛУ НА СТРАНИЦАХ ТУРЕЦКОЙ ПРЕССЫ

**Махир Гарибов**[1]

**УДК:** 070(560)“1939”:929(Агаоглу,А.)
**ББК:** 76.12(5Тур):63.3(5Тур)6
**HoS:** 144
**DOI:** 10.33864/2790-0037.2026.v7.i1.231-239

**Ключевые слова:**

Турецкая пресса,
Ахмед Агаоглу,
Общественная мысль,
«Сон Телграф»,
«Тан»,
«Улус»,
«Джумхуриет»,
«Икдам»,
«Сон Поста»,
«Ени Сабах»

**Область исследования:**

Многодисциплинарные исследования

**Научная область:**

История журналистики

## АННОТАЦИЯ

Ахмед Агаоглу является одной из тех выдающихся личностей, которые оставили глубокий след в истории азербайджанской и турецкой прессы, а также в целом в культурно-интеллектуальной жизни тюркского мира. Будучи одним из крупных мыслителей тюркского пространства, Агаоглу на протяжении всей своей деятельности сохранял национально-либеральные взгляды и вплоть до своей смерти в 1939 году оставался независимым журналистом, открыто высказывавшим свои позиции и выступавшим в защиту свободы слова и демократического мышления. Его жизнь, творчество, литературные и публицистические взгляды существенно обогатили и разнообразили его литературное наследие. Значительную часть своей деятельности Агаоглу посвятил работе в различных газетах и журналах. Анализ материалов прессы того периода, посвящённых последним дням его жизни, показывает, что сообщение о кончине Агаоглу получило широкое освещение на страницах ведущих турецких газет. В настоящем исследовании рассматриваются публикации, вышедшие в газетах «Son Telgraf», «Tan», «Ulus», «Cumhuriyet», «İkdam», «Son Posta» и «Yeni Sabah». Цель статьи- выявить особенности восприятия последних дней жизни Ахмеда бека Агаоглу турецкой общественностью, а также осветить малоизвестные моменты его биografiyası.

[1] Кондидат исторических наук,
Кафедра История национальной прессы, Бакинский Государственный Университет; Баку, Азербайджан
E-mail: mahir_garibov@yahoo.com
https://orcid.org/0009-0002-8183-5802

**Цитировать статью:** Гарибов, М. [2026]. Статьи о последних днях жизни и смерти Ахмеда Агаоглу на страницах турецкой прессы. *Журнал History of Science*, *7*(1), с.231-239.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i1.231-239

***История статьи:***
*Поступила: 11.01.2026*
*Переработана: 12.02.2026*
*Принята: 01.03.2026*
*Опубликована: 15.03.2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Əhməd bəy Ağaoğlu XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda və türk dünyasının ictimai-siyasi və mədəni həyatında dərin izlər buraxan, öz fikirləri və qələmi ilə böyük hörmət qazanan şəxsiyyətlərdən biri olmuşdur. Şuşada doğulan, əslən Qarabağlı ziyalı, publisist, filosof və ictimai xadim olan Ağaoğlu həm Qafqazda, həm də Türkiyədə millətçilik ideyalarının formalaşmasında mühüm rol oynamışdır. Onun fəaliyyəti təkcə siyasi müstəvidə deyil, həm də maarifçilik, hüquq bərabərliyi, qadın azadlığı və modern dövlətçilik prinsiplərinin inkişafında əhəmiyyətli izlər buraxmışdır. Ağaoğlunun ictimai-siyasi və ideoloji baxışları, xüsusilə türkçülük anlayışına verdiyi məna və bu istiqamətdə həyata keçirdiyi fəaliyyətlər, həm milli oyanış prosesinə, həm də türk xalqları arasında milli birlik ideyasının yayılmasına ciddi təsir göstərmişdir. Ağaoğlu üçün türkçülük yalnız etnik kimliklə məhdudlaşmır, daha çox mədəni və mənəvi birlik anlayışını ifadə edirdi. O, türk xalqları arasında ortaq dilin, tarix şüurunun və mədəni dəyərlərin gücləndirilməsini başlıca amil kimi görürdü [Ağaoğlu, 2013 s.17]. Əhməd bəy Ağaoğlunun ömrünün son illəri İstanbulda keçmiş, o, burada həm elmi-akademik, həm də ictimai-siyasi fəaliyyətini davam etdirmişdir. 1939-cu ildə isə onun vəfatı ilə bağlı xəbərlər Türkiyə dövrü mətbuatında geniş əks-səda doğurmuşdur. O dövrün qəzetləri – "Son Telgraf", "Tan", "Ulus", "Cumhuriyet", "İkdam", "Son Posta" və "Yeni Sabah" – Ağaoğlunun şəxsiyyətinə, ideyalarına və xidmətlərinə xüsusi diqqət göstərmişdir. Bu fakt onun yalnız bir intellektual kimi deyil, həm də milli ideologiyanın öndərlərindən biri kimi qəbul edildiyini göstərir [Ağaoğlu, 2013 s.17].

Mövzunun aktuallığı ondan ibarətdir ki, Əhməd bəy Ağaoğlunun fikirləri və mədəni irsi bu gün də türk dünyasının milli kimlik, mədəniyyətlərarası dialoq, ictimai və siyasi fikrində böyük əhəmiyyət kəsb edir. Bu tədqiqatın məqsədi Əhməd bəy Ağaoğlunun həyatının son dövrləri və ömrünün son günlərini Türkiyə mətbuatında necə işıqlandırıldığını müəyyənləşdirmək və o dövrün ictimai münasibətləri, onun şəxsiyyəti və fəaliyyətinə münasibəti təhlil etməkdir.

Araşdırmada əsas mənbələr kimi 1930-cu illərin Türkiyə qəzet materiallarından istifadə olunub. 1933-cü ildə Türkiyədə gündəlik nəşrə başlayan "Akın" qəzetinin ilk sayında "Qəzetəmizin yolu, istəyimiz və üslubumuz" adlı məqaləsində, qəzeti cumhuriyyətçi, xalqçı və inqilabçı kimi təqdim edir və izləyəcəyi yolun əsas xətlərini müəyyən edir. Akın qəzeti Anadolu bölgəsində geniş oxucu kütləsinə malik olur. Demokratik prinsipləri rəhbər tutan bu qəzetin əsas qayəsi barədə Əhməd bəy Ağaoğlu belə yazırdı: "Demokratiyanı, azadlığı, vəzifə məsuliyyətini xatırlatmaq istəyən "Akın" yaxşıya- yaxşı, pisə- pis deməkdən çəkinmir, vətənsevərliklə irəliləyir" [Ağaoğlu, 1933, s.4].

Əhməd bəy Ağaoğlu sözünü açıq və birbaşa ünvanına deyirdi, müraciət etdiyi tərəfin qərəzli, məsələnin həl¬linə müxtəlif bəhanələrlə əngəl olmaq istəyinə qarşı sərt təpki verirdi. O bütün varlığı ilə Türk dünyasına, onun tarixinə, gələcək taleyinə bağlı bir mücahid olub. Özünə ikinci vətən saydığı Türkiyədə daha böyük əzmlə, qətiyyətlə, gecəli-gündüzlü, qibtəedici bir səylə çalışıb. Türk dünyasının milli-mənəvi dəyərlərinin təbliği və bu irsi bütün dünyaya bəyan etmək üçün son nəfəsinə kimi mübarizə aparıb [Kaya, 2015, s.7]. Məhz bu əzm və iradənin nəticəsi idi ki, Əhməd bəy Ağaoğlunun 19 may 1939-cu ildə vəfatı Türkiyə ictimaiyyətində dərin kədər və minnətdarlıq hissi ilə qarşılanmışdır. O dövrün aparıcı qəzetlərinin arxiv materialları göstərir ki, onun vəfatı yalnız bir ziyalının vəfatı kimi yox, həm də bir dövrün sonu, milli ideologiyanın öncüllərindən birinin xatirəsinə olan ehtiram jesti kimi təqdim edilir.

Tədqiqat çərçivəsində araşdırılan qəzetlər "Son Telgraf", "Tan", "Ulus", "Cumhuriyet", "İkdam", "Son Posta" və "Yeni Sabah" həm xəbər, həm də publisistik janrda materiallar

dərc etmişdir. Bu yazılarda Ağaoğlunun şəxsiyyəti, elmi fəaliyyəti və milli ideologiyaya töhfələri müxtəlif prizmadan qiymətləndirilmişdir.

**2.“Son Telgraf” qəzetində Ağaoğlu obrazı**

Ağaoğlunun 1939-cu il mayın 19-da vəfatı dövrün qəzetlərindən olan “Son Teleqraf” qəzeti Bürhan Cevatın qələmindən “Acı Bir İtki” başlığı ilə təqdim edilir. Cevat, “Əhməd Ağaoğlu dünən səhər saatlarında vəfat etdi. Bu, türk ziyalıları və türk mətbuatı üçün ağrılı itkidir”. Bundan əlavə, Cevat Ağaoğlunun on gündür xəstə olduğunu, ancaq ölənə qədər enerjisini və zəkasını işlətdiyini əlavə edib. Qəzet səhifələrində Ağaoğlunun yeni yazısını axtararkən onun ölüm xəbərinə rast gəlmək Cevat və mətbuat ictimaiyyəti üçün nə qədər acı olduğunu dilə gətirib. Söz yox ki, Ağaoğlu hüquq professoru, jurnalist, vətənpərvər, eyni zamanda namuslu və dəyərli bir vətəndaşdır. Cevat, Ağaoğlunun vəfatı xəbəri qarşısında onun şəxsiyyətinə verilən ümumi təqdir hisslərini ifadə etməyi özünə borc bildiyini və yazısını böyük ehtiramlatamamladığını bildir [Son Telegraf, 19 mayıs 1939, s.8]. “Son Telgraf” qəzetinin 20 may 1939-cu il tarixli sayında isə “Millət ideoloqunu itirdik” sərlövhəli yazıda Ağaoğlunun Türkiyə Cümhuriyyətinin ideoloji işin formalaşmasında oynadığı rolu xüsusi vurğulanırdı. Qəzet yazırdı ki, “Əhməd bəy, millətin tərəqqi yolunda düşünən beyinlərindən biri idi” [Son Telegraf, 1939, s.3]. Bu məqalədə onun Atatürk dövrü modernləşmə siyasətinə verdiyi böyük dəstək xüsusi qeyd olunur.

**3.“Tan” qəzetinin yazısı**

Liberal və mədəniyyət yönümlü “Tan” qəzeti Ağaoğlunu əsasən maarifçi ziyalı kimi təqdim etmişdir. 20 may 1939-cu il tarixli “Tan” qəzetində Naci Sadullahın Ağaoğlu haqqında iki məqaləsi var. Qəzetin altıncı səhifəsində Sədullahın birinci yazısı “Ağaoğlunun evində gördüklərim” adlanır. O, Ağaoğlunun Nişantaşıdakı evində gördüklərini çatdırmaqla yanaşı, bu hadisəyə öz hisslərini də əlavə edib: “Nişantaşıdakı evin qapısından içəri girəndə Ağaoğlu Əhməd üçün ağlamaq mənim doyumsuz ehtiyacım idi. Amma Ağaoğlunu o ruh halında yazmaq isə mənim üçün vəzifə yox, sarsıdıcı bir cəza idi. Mən, oğlu Əbdürrəhmanın əlini sıxarkən bu cəzaya necə dözəcəyimi düşünürdüm” [Tan, 1939 s.6]. O, bu məsuliyyətli işi yerinə yetirməyin dözülməz kədərini də oxucularla bölüşür. Sədullah dərin kədərini heç bir şəkildə izah edə bilməyəcəyini əlavə edir. Əhməd Ağaoğlu beş uşağının əhatəsində çarpayıda dünyasını dəyişib. Övladlarının hər birinin kədərini müxtəlif cür ifadə etdiklərini deyən Sədullah məqalədə bunları geniş izah edib: “Ata!.. Sən pislik edənlərin düşməni idin! Bizi niyə tərk etdin, Ata?" Tezer hönkür-hönkür ağlayır, başqa küncdə Süreyya oturub. Süreyya ağlamır. Amma göz çeşmələrində səhra quruluğu var. Ölkənin ilk qadın vəkili Sürəyya, deyəsən, bu gün həyatının ən böyük davasını itirib! Elektrik mühəndisi Əbdürrəhman və Daxili Ticarət Baş Müdir müavini Səməd mənimlədir! Görünən odur ki, onlar borclarını yerinə yetirmək üçün iradələrinin son zərrəsini də israf edirlər”. Eləcə də yazıdan da anlaşıldığı kimi, Ağaoğlun kiçik qızı Gültəkini bacı-qardaşlarına əmanət etməyə xüsusi önəm verib. Hətta ölümünün son anında: “O çox balacadır. Bunu sizə həvalə edirəm... Nəzəriniz üzərində olsun!” [Tan, 1939 s.6]. Sadullahın yazısının son hissəsində Ağaoğlunun övladlarına nəsihət etdiyi, lakin bütün oxuculara örnək götürüləsi sözlər var: “*Başınızı əyməyin. İnsanın boynu yaş ağac kimidir. Bir dəfə əyildisə, bir daha düzəlməyəcək! Yalnız maddi ləzzətlərə tabe olaraqla yaşamaq və ölmək acınacaqlı bir həyatdır. Amma haqsızlığa boyun əymədən yaşamaq və ölmək maddi ləzzət verməsə də, şərəflidir*”. Sadullah yazısının ən təsirli yeri kimi Ağaoğlunun son sözlərini qeyd edib: … o, dönüb güldü: “*Sabaha hazırlaş: Səhv etmirəmsə, yetmiş illik pərdə bağlanacaq növbəti gün! Amma arxamca ağlamayın, heyif deməyin. Xoşbəxtlikdən ölürəm. Beş körpəm yanımdadır. Onların hamısı həyata qarşı silahlanıb. Heç bir narahatlığım yoxdur. Mənim vicdanım heç bir pisliyə görə ağrımaz*” (Bu zaman gözləri yenidən yaşla doldu) *Mən isə,* (o,

tibb bacısının əlini sıxdı) *yetmiş il yaşadım ki, rahat ölə bilim. İstəyinə çatan adamın arxasınca ağlarlarmı?...* [Tan, 1939 s.6].

Tan qəzetinin 21 may 1939-cu il tarixli nömrəsində isə "*Bir fikir adamının susan səsi*" başlıqlı yazıda müəllif Ağaoğlunun Avropa təhsilli, milli dəyərlərə bağlı ziyalı obrazını ön plana çıxarır. Qəzetin naşiri yazırdı: "*O, Şərqin oyanışına Qərbin ağlı, lakin Türk ruhu ilə xidmət edirdi*" [Tan, 1939 s.2]. Qəzet əməkdaşları Ağaoğlunun vəfatından dərin kədərləndiklərini "Günün Məsələləri" başlığı ilə çatdırıblar. Qəzetin baş redaktorunun yazdığı yazı isə kədərin miqyasını üzə çıxarır. Yazıda dünən mətbəəyə gələn kimi kədərli xəbəri eşidəndə doğma atasını itirmək kimi kədərləndiyini, "Ağaoğlunun iyirmi beş ildir ona Ata və Müəllim" olduğunu bildirib. Yazının davamında bildirilir ki, Ağaoğlu "Türk Ocağı"nda dövrün gənclərinə milli duyğular aşılayan, onlara bir ziyalı kimi həyatı sevdirən ziyalılardandır. Onun müxtəlif məqalələri və konfransları ilə mahiyyətcə bir nəsil atası olduğu qeyd olunub. Ağaoğlunun ölümünün təkcə beş övladın deyil, türk heysiyyatlı bütöv bir nəsli yetim qoyduğu yazıda yer alıb [Çiftçioğlu, 2018, s.177].

Tan qəzetinin Ağaoğlu ilə bağlı məlumatları bunlarla məhdudlaşmır. Qəzet Ağaoğluya həsr etdiyi xüsusi bölmədə onun həyata göz yumana qədər dəyərli bir alim olduğunu, ətrafına toplaşan gənclərlə söhbətinin onun üçün ən böyük zövq olduğunu qeyd edib. Ağaoğlunun həyatından hissələr danışmağa davam edən qəzet, onun Ankaradan İstanbula gəldikdən sonra uzun müddət tək qaldığını oxucuları ilə bölüşüb. Ağaoğlu üçün qocalıq ən çətin dövr idi. Qocalıq ona istədiyi kimi hərəkət etməyə imkan vermirdi. Lakin onun ölümündən bir həftə əvvələ qədər yazmağa davam etməsi və bu baxımdan dünyasını xoşbəxt dəyişməsi qəzetin oxucuya verdiyi qiymətli məlumatlar arasında idi. Belə ki; "*Ağaoğlu işini görüb, doğma yurda, diyarına borcunu ödəyib, övladlarının hər birini ayrı bir fərd kimi böyüdüb və ölkəyə hədiyyə edib, rahat yatağına şadlıqla uzanıb... Lakin ölkə onun ölümü ilə qiymətli oğlunu itirdi. Bu itkiyə görə onun öz övladları kimi vətəni də göz yaşı tökdü*". [Tan, 1939 s.5].

**4."Cumhuriyet" və "Ulus" qəzetlərində Ağaoğluya münasibət**

"Cümhuriyyət" qəzeti Ağaoğlunun ölüm xəbərini 20 may nəşrində "Bir Cümhuriyet fikirçisi dünyasını dəyişdi" başlığı ilə növbəti gün isə birinci səhifəsində "Acılı bir itki" başlığı ilə dərc edib. Qəzet naşirləri, mütəfəkkir və yazarlar Əhməd Ağaoğlunun vəfatını böyük hüznlə eşitdiklərini bildiriblər. Ağaoğlunun illərdir nəfəs darlığından əziyyət çəkdiyini, zaman-zaman yaşadığı mənəvi böhranları da qəzetdəki yazıya əlavə ediblər. Üstəlik, qəzet Ağaoğlunun ölümü üçün ayrılmış köşə yazısında dünən günortaya doğru son dəqiqələrinin yaxınlaşdığının anlaşıldığını, yatağının başına toplaşan övladlarına isə "ölümün təbii bir hadisə olduğunu və hər zaman nikbin qalmaq" nəsihətindən sonra böyük bir sakitlik içində dünyasını dəyişdiyi qeyd edilib [Cümhuriyyət, 1939, s.3]. Ölüm xəbərinin davamında (qəzetin 3-cü səhifəsində) Ağaoğlunun doğumundan ölümünə qədər olan həyatından hissələr təqdim olunur və bildirilirdi ki, onun maarifçilik fəaliyyəti "Türk gəncliyi üçün istiqamətverici məktəb" idi. Rəsmi siyasi xəttə yaxın olan "Cumhuriyet" və "Ulus" qəzetlərində Ağaoğlunun vəfatı dövlətin modernləşmə, çağdaşlıq konsepsiyası ilə əlaqələndirilir. "Ulus"un 20 may 1939-cu il buraxılışında isə "Bir Cümhuriyyət fikir adamı dünyasını dəyişdi" sərlövhəli nekroloq çap olunmuş, orada qeyd edilirdi ki, "*Əhməd Ağaoğlu, Cümhuriyyət fikrinin elmi təməlini qoyanlardan idi*" [Ulus, 1939, s.1].

**5."İkdam" və "Son Posta" qəzetlərində Ağaoğlunun vəfatına dair yazılar**

"İkdam" qəzeti də Cümhuriyyət qəzetində olduğu kimi Ağaoğlunun ölüm xəbəri verildikdən sonra onun həyatı "Ağaoğlunun Şəxsiyyəti" başlığı ilə təsvir edilir. "İkdam" qəzetinin Ağaoğlunun ölümü ilə bağlı yazı və xəbərlərə dövrün digər qəzetlərinə nisbətən daha çox yer ayırdığı görünür. Çox güman ki, bu, Ağaoğlunun bu qəzetin baş redaktoru olması ilə bağlıdır. Qəzetin 20 may 1939-cu il tarixli birinci səhifəsində "Elm bir ziyadır"

başlığı ilə böyük türk aliminin vəfatı xəbəri verilmişdir. Xəbərdə türkçülük hərəkatının öncüsü, İstanbul və Ankara Hüquq fakültələrinin dəyərli alimi, bir çox qəzet naşirlərinin müəllimi, maarifçi demokrat yazarlardan olan böyük mütəfəkkir, professor Əhməd bəy Ağaoğlunun dünyasını dəyişdiyi açıqlanıb. "İkdam" qəzetində dərc olunan "Bir dövr bağlandı" adlı yazı Ağaoğlunun həyatını milli ideya uğrunda mübarizə kimi təqdim etmiş, onun Qafqazdan Anadoluya uzanan həyat yolunu "*bir millətin oyanış səfəri*" kimi xarakterizə etmişdir [İkdam, 1939, s.3] "Son Posta" qəzetində isə yazı daha çox emosional təsir daşıyır, burada Ağaoğlu "Türkün ağlı və vicdanı" kimi təsvir olunur [Son Posta, 1939, s.5].

**6."Yeni Sabah" qəzetində ictimai yaddaş aspekti**

"Yeni Sabah" qəzetinin 23 may 1939-cu il sayında dərc olunan "Unudulmaz bir fikir adamı" adlı məqalədə müəllif Ağaoğlunun şəxsiyyətinin gələcək nəsillər üçün örnək olacağını bildirir: "O, türk gəncliyinə düşünməyi, soruşmağı və inamla çalışmaq əxlaqını öyrətdi" ]Yeni Sabah, 1939, s. 3]. Bu məqalələrin müqayisəli təhlili göstərir ki, Türkiyə mətbuatında Əhməd bəy Ağaoğlunun obrazı ideoloq, maarifçi və milli fikir adamı kimi təqdim olunmuşdur. Qəzetlər onun ölümünü yalnız fərdi itki kimi deyil, milli dəyərlərin daşıyıcısının itkisi kimi dəyərləndirmişlər. Mətbuat diskursunda diqqətəlayiq bir məqam da ondan ibarətdir ki, bütün bu mənbələrdə Ağaoğlu həm Azərbaycan mənşəli ziyalı, həm də Türkiyə Cümhuriyyətinin intellektual dayaqlarından biri kimi qəbul edilir. Bu, onun iki millət arasında mənəvi körpü rolunu oynadığını göstərir [Əliyev, 2020, s.28].

Beləliklə, 1939-cu il Türkiyə mətbuatının diskursu Ağaoğlunun vəfatını milli ideologiyanın simvolik itkisi kimi qiymətləndirərək, onun fikirlərini müasir türk kimliyinin formalaşması ilə əlaqələndirir.

**7.Nəticə**

Əhməd bəy Ağaoğlu XX əsrin əvvəllərində türk dünyasının milli oyanış və modernləşmə prosesində mühüm rol oynamış ziyalılardandır. Onun ideyaları təkcə Azərbaycan və Türkiyə tarixində deyil, ümumtürk mədəniyyətinin ideoloji təməllərinin formalaşmasında da böyük əhəmiyyətə malikdir. O, millətin tərəqqisini maarifçilik, hüquqi bərabərlik və milli özünüdərk kimi dəyərlər üzərində qurmağı zəruri hesab etmişdir. Türkiyədə "Məclisi-Məbusan" üzvü olmaqla yanaşı Əhməd bəy Ağaoğlunun əsas məqsədi, dərin böhran və tənəzzül içində olan Türk dünyasının intibahına yardım etmək və türklərin dünyann aparıcı millətləri ilə bir sırada durmasına nail olmaqdan ibarət idi.

Xalqa və mllətə xidmətin məkan və zaman tanımadığını hər məqamda dilə gətirən Əhməd bəy Ağaoğlunun "Türklük bölünmə qəbul etməyən bir tamdır. Məqsəd ona xidmətdir. Bu xidmət harada edilirsə müqəddəsdir, mübarəkdir!" fikri, milli mənlik şuurunun, demokratik təfəkkürün inkişafı və formalaşmasında xüsusi rolu ilə xalqımızın yaddaşında əbədi yaşayacaq. 1939-cu ildə onun vəfatı Türkiyə ictimai fikrində dərin iz buraxmış, aparıcı qəzetlərdə işıqlandırılmışdır. "Son Telgraf", "Tan", "Ulus", "Cumhuriyet", "İkdam", "Son Posta" və "Yeni Sabah" kimi qəzetlərdə dərc olunan yazılarda Ağaoğlunun həyatına və ideyalarına müxtəlif baxışlardan yanaşsalar da, ümumi məzmun baxımından bir-birini tamamlamışlar. Hər yazıda onun şəxsiyyəti, millətin ideoloqu, maarifçi insan və Türk dünyasının milli düşüncə öndəri kimi təqdim edilmişdir.

Mətbuat materiallarının analizi göstərir ki, Əhməd bəy Ağaoğlunun obrazı Türkiyə ictimai şüurunda yalnız bir fərd kimi deyil, həm də milli özünüdərkin simvolik təcəssümü formasında yaşayır. Onun haqqında yazılan nekroloqlar, publisistik yazılar, türk mətbuatı və jurnalistika tarixində mühüm bir mərhələni təşkil edir.

Tədqiqatın nəticəsini belə ümumiləşdirə bilərik.

1. Türkiyə mətbuatı Əhməd bəy Ağaoğlunun vəfatını ictimai hadisə kimi qiymətləndirmiş, onu Cümhuriyyət ideyasının müəlliflərindən biri kimi təqdim etmişdir.

2. Onun haqqında yazılan mətbuat məqalələri Türkiyə-Azərbaycan əlaqələrinin ideoloji əsaslarının formalaşmasında mühüm rol oynamışdır.

3. Bu tədqiqat Ağaoğlunun irsinin yalnız tarixi aspektdən deyil, həm də müasir dövrdə türk ictimai-siyasi düşüncə fikir kontekstində öyrənilməsinin zəruriliyini göstərir.

Beləliklə, Əhməd bəy Ağaoğlunun ömrünün son günləri və dünyasını dəyişməsi haqqında xəbərlər, Türkiyə mətbuatındakı yazılar bir tərəfdən onun şəxsiyyətinə olan dərin hörməti əks etdirir, digər tərəfdən isə türk dünyasının intellektual tarixində onun davamlı təsirini sübut edir. Əhməd bəy Ağaoğlunun jurnalist olaraq yazdığı məqalələrdə, redaktoru olduğu qəzetlərdə, nəşr etdirdiyi kitablarda, fəallıq göstərdiyi dövlət və ictimai qurumlarda hər zaman onun həyat amalı azad sözün, demokratik təfəkkürün inkişafı olmuşdur. Bura həm yaşadığı toplumun, həm də real mühitin azadlıq ideallarını daxil etmək olar ki, Ağaoğlu hər vəchlə təhsil aldığı Avropa mühitinin mütərəqqi ideyalarını cəmiyyətdə yaymağa çalışırdı. “Bu yol uzun yoldur və çox cəfalı, əziyyətli, zəhmətli yoldur. Bu yola girən gərək hər şeyə hazır olub, hər hərəkətə, hər müamiləyə səbr etsin” deyərək özündən sonra böyük bir mənəvi irs yaratmışdır.

## 8.REFERENCES


1. Agaoglu, A. (1933, May 29). *The path, purpose, and style of our newspaper Akin*. (in Turkish)
2. Agaoglu, A. (2013). *Selected works*. Baku: Elm ve Tehsil. (in Azerbaijani)
3. Cumhuriyet. (1939, May 20). *A republican thinker passed away.* (in Turkish)
4. Cumhuriyet. (1939, May 21). *A painful loss.* (in Turkish)
5. Chiftchioghlu, F. (2018). The reflections of Ahmed Agaoglu's death in the Turkish press. *Akademik Tarih ve Dusunce Dergisi, 5*(17), 162-180. (in Turkish)
6. Efendiyev, R. (2010). *Azerbaijani intellectuals and the national idea: Late nineteenth century - early twentieth century*. Baku: Qanun. (in Azerbaijani)
7. Aliyev, E. (2020). *The role of Ahmad bey Agaoglu in the history of Turkish thought*. Sherq-Qerb. (in Azerbaijani)
8. Ikdam. (1939, May 20). *The personality of Aghaoghlu.* (in Turkish)
9. Ikdam. (1939, May 22). *An era has ended.* (in Turkish)
10. Kaya, M. (2015). *The image of the intellectual in the Turkish press during the Republican period (1923-1940)*. Iletishim Yayinlari. (in Turkish)
11. Qarayev, N. (2009). *Ahmad bey Agaoglu and the idea of Turkism*. Baku: Elm. (in Azerbaijani)
12. Qasimzade, R. (1985). *The Azerbaijani national movement and the press (1905-1918).* Baku: Elm. (in Azerbaijani)
13. Son Posta. (1939, May 22). *The mind and conscience of the Turk.* (in Turkish)
14. Son Telgraf. (1939, May 20). *We lost the ideologue of the nation.* (in Turkish)
15. Son Telgraf. (1939, May 20). *A bitter loss.* (in Turkish)
16. Tan. (1939, May 20). *What I saw in Agaoglu’s house.* (in Turkish)
17. Tan. (1939, May 20). *Issues of the day.* (in Turkish)
18. Tan. (1939, May 21). *The silenced voice of a man of thought.* (in Turkish)
19. Ulus. (1939, May 20). *A republican thinker passed away.* (in Turkish)
20. Yeni Sabah. (1939, May 23). *An unforgettable man of thought.* (in Turkish)
21. Yilmaz, S. (2017). *Ideologues of Turkish modernism: Ahmad Agaoglu and the concept of modernity*. Bilgi Yayinlari. (in Azerbaijani)


## ƏDƏBİYYAT


1. Agaoglu, A. (1933, May 29). *Akın Gazetemizin Yolu, Dilegi ve Tarzı.*

**2.** Ağaoğlu, Ə. (2013). *Seçilmiş əsərləri.* Bakı: Elm və Təhsil.
**3.** Cumhuriyet. (1939, May 20). *Bir Cumhuriyet fikirçisi dünyasını dəyişdi.*
**4.** Cumhuriyet. (1939, May 21). *Acılı bir itki.*
**5.** Çiftçioğlu, F. (2018). Ahmed Ağaoğlu'nun vefatının Türk basınına yansımaları. *Akademik Tarih ve Düşünce Dergisi, 5*(17), 162–180.
**6.** Əfəndiyev, R. (2010). *Azərbaycan ziyalıları və milli ideya: XIX əsrin sonu – XX əsrin əvvəli.* Bakı: Qanun.
**7.** Əliyev, E. (2020). *Türk düşüncə tarixində Əhməd bəy Ağaoğlunun rolu.* Şərq-Qərb.
**8.** İkdam. (1939, May 20). *Ağaoğlunun şəxsiyyəti.*
**9.** İkdam. (1939, May 22). *Bir dövr bağlandı.*
**10.** Kaya, M. (2015). *Cumhuriyet dönemi Türk basınında aydın imajı (1923–1940).* İletişim Yayınları.
**11.** Qarayev, N. (2009). *Əhməd bəy Ağaoğlu və türkçülük ideyası.* Bakı: Elm.
**12.** Qasımzadə, R. (1985). *Azərbaycan milli hərəkatı və mətbuat (1905–1918).* Bakı: Elm.
**13.** Son Posta. (1939, May 22). *Türkün ağlı və vicdanı.*
**14.** Son Telgraf. (1939, May 20). *Millət ideoloqunu itirdik.*
**15.** Son Telgraf. (1939, May 20). *Acı bir itki.*
**16.** Tan. (1939, May 20). *Ağaoğlunun evində gördüklərim.*
**17.** Tan. (1939, May 20). *Günün məsələləri.*
**18.** Tan. (1939, May 21). *Bir fikir adamının susan səsi.*
**19.** Ulus. (1939, May 20). *Bir Cumhuriyyət fikirçisi dünyasını dəyişdi.*
**20.** Yeni Sabah. (1939, May 23). *Unudulmaz bir fikir adamı.*
**21.** Yılmaz, S. (2017). *Türk modernizminin ideoloqları: Əhməd Ağaoğlu və çağdaşlıq anlayışı.* Bilgi Yayınları.